

Elektrik enerjisi sahəsi Azərbaycanın sosial problemlərinin həll olunmasında xüsusi rol oynayır.
Heydər ƏLİYEV


# Azərbaycan işıqları

"Azərenerji" ASC-nin orqanı

22 OKTYABR 2015-ci il
CÜMƏ AXŞAMI

№ 41 (1116)

www.azerenerji.gov.az


*"Terrorizmə qarşı mübarizədə bütün dünya birliyinin çoxplanlı əməkdaşlığı olmadan dünyada heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz... Bu təhlükə bu gün region ölkələri üçün bilavasitə risklərin və bizim hamımız üçün potensial risklərin mənbəyidir. Buna görə də bugünkü mərhələdə beynəlxalq terrorizmə qarşı mübarizə bütün ölkələr üçün prioritet olmalıdır və biz yalnız səylərimizi birləşdirməklə qarşıya qoyulmuş məqsədlərə çata bilərik".*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## RƏSMİ XRONİKA

**15 oktyabr**

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Qazaxıstan Respublikasının Akmola vilayətinin Burabay qəsəbəsində keçiriləcək iclasında iştirak etmək üçün bu ölkəyə işgüzar səfərə gedib. Dövlətimizin başçısını yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.

**16 oktyabr**

- Prezident İlham Əliyev Qazaxıstan Respublikasının Akmola vilayətinin Burabay qəsəbəsində Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının növbəti iclasında iştirak edib.

**17 oktyabr**

- Prezident İlham Əliyev Azərbaycan Respublikasında statistika işinin təşkili sahəsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxsin təltif edilməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev Eldar Əhməd oğlu Mahmudovun Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.

**19 oktyabr**

- Prezident İlham Əliyev Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvilini qəbul edib. Hər iki ölkə arasında əməkdaşlığının siyasi, iqtisadi, humanitar və digər istiqamətlərdə fəal şəkildə davam etdirilməsinin zəruriliyini vurğulayan dövlətimizin başçısı İlham Əliyev bu əməkdaşlığın bizi birləşdirən irimiqyaslı nəqliyyat, energetika və iqtisadi layihələrin həyata keçirilməsi baxımından əhəmiyyətini qeyd edib.
- Prezident İlham Əliyev Kosta-Rika Respublikasının xarici işlər və etiqad naziri Manuel Qonzales Sanzı qəbul edib. İki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın ikitərəfli münasibətləri genişləndirməkdə maraqlı olduğunu vurğulayıb, əlaqələrimizin gələcəkdə müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadiyyat, enerji, sərmayə qoyuluşu, ticarət, mədəniyyət və digər sahələrdə genişləndirilməsinin vacibliyini qeyd edib.
- Prezident İlham Əliyev Azərbaycanda energetikanın inkişafında xidmətlərinə görə Yaşar Cabbar oğlu Vahabova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Azərbaycanda energetika sahəsində səmərəli fəaliyyətlərinə görə bir qrup energetikin «Tərəqqi» medalı ilə təltif edilməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında fərman imzalayıb.

**20 oktyabr**

- Prezident İlham Əliyev Rusiya Federasiyası Kinematoqrafçılar İttifaqının sədri, Rusiya mədəniyyətinin görkəmli xadimlərindən biri N.S.Mixalkova 70 illik yubileyi münasibətilə təbrik teleqramı göndərib.
- Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə Nikita Sergeyeviç Mixalkovun «Dostluq» ordeni ilə təltif edilməsi barədə sərəncam imzalayıb.

# *Prezident İlham Əliyev:* "Beynəlxalq terrorizmə qarşı mübarizə bütün ölkələr üçün prioritet olmalıdır"





♦ **"Biz "Şimal-Cənub" dəhlizinin layihəsi üzərində, ilk növbədə Rusiya Federasiyası və İranla fəal işləyirik. Artıq ciddi razılaşmalar əldə olunub, bizim dəmir yolu magistrallarının birləşdirilməsi prosesinin sürətləndirilməsinə dair konkret qərarlar qəbul edilib. Bu layihə böyük maliyyə gəlirləri vəd edir". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 16-da Qazaxıstan Respublikasının Akmola vilayətinin Burabay qəsəbəsində Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının növbəti iclasında bəyan edib.**

Dövlətimizin başçısı çıxışında deyib: "Mən öz çıxışımda iki-üç mövzuya toxunmaq istərdim. Birincisi, bu, artıq qeyd edildi: qarşılıqlı iqtisadi fəaliyyətin yeni formalarının axtarılması zərurəti. MDB ölkələri arasında əmtəə dövriyyəsi azalıb. Dünyada baş verən müəyyən proseslər nəzərə alınsa, burada, əlbəttə, obyektiv amil var. MDB üzvü olan ölkələrin çoxunun milli valyutaları öz dəyərini itirib. Biz hesablaşmaları dollar ilə apardığımıza görə bu, təbii ki, statistikada dərhal mənfi işarə ilə öz əksini tapır. Buna görə mən də Vladimir Vladimiroviç Putinin hesablaşmaları milli valyutalarla aparmağa keçid məsələsinin araşdırılması ideyasına qoşulmaq istərdim. Bu, bizim fəaliyyətimizlə bağlı olmayan müəyyən maliyyə risklərindən yaxa qurtarmağa, həmçinin milli valyutalarımızı möhkəmlətməyə imkan verər, iqtisadi inteqrasiya işinə daha çox kömək edərdi. İqtisadi sahədə əməkdaşlığın yeni formalarının, həmçinin xüsusən zəngin təbii ehtiyatlara malik olan ölkələrdə yeni iqtisadi modelin möhkəmlənməsinin yeni formalarının axtarışı, əlbəttə, dövlətlərimizin gündəliyindədir. Düşünürəm ki, burada meydana çıxan riskləri minimuma endirmək üçün daha fəal məsləhətləşmələr, fikir və təcrübə mübadiləsi aparmaq olar".

Dövlətimizin başçısı qeyd edib ki, MDB-nin təbii ehtiyatlara, neftə, qaza malik olan ölkələri neft və qaz hasil edən çoxsaylı ölkələr arasında bu böhrana müqavimət baxımından ən yaxşı göstəricilərə malikdirlər. Azərbaycan nəqliyyat təhlükəsizliyi məsələlərində fəal iştirak edir. Biz, həmçinin bütün MDB ölkələrini irəli sürdüyümüz təşəbbüslərə, o cümlədən Birliyin üzvü olan bəzi ölkələrlə müştərək təşəbbüslərə qoşulmağa dəvət edirik. Bu ilin avqust ayında Qazaxıstandan keçməklə Çindən Azərbaycana gələn ilk konteyner qatarı qəbul edilib. Bu, Şərq-Qərb dəhlizinin yeni cizgilər kəsb etməyə başladığını göstərən yaxşı əlamətdir. Bu dəhlizin böyük geosiyasi əhəmiyyəti var və o həmin yol üzərində, habelə bu nəqliyyat marşrutunun yaxınlığında yerləşən ölkələrin daha sıx inteqrasiyasına imkan verəcək.

Ölkə Prezidenti bildirib ki, "Şimal-Cənub" dəhlizi layihəsi üzrə artıq ciddi razılaşmalar əldə olunub və bizim dəmir yolu magistrallarının birləşdirilməsi prosesinin sürətləndirilməsinə dair konkret qərarlar qəbul edilib. Bu layihənin böyük maliyyə gəlirləri vəd etdiyini vurğulayan dövlətimizin başçısı deyib: "Bu magistral Çinin, Hindistanın, İranın, Azərbaycanın, Rusiyanın və Avropanın nəhəng bazarlarını birləşdirən ən rahat və ən qısa yoldur. Həmçinin sizə bu barədə məlumat vermək və tərəfdaş ölkələrimizi bu layihəyə qoşulmağa dəvət etmək istərdim. Bu iştirak müxtəlif formada ola bilər – sərmayə qoyuluşu, yüklərin təminatı ilə bağlı məsələlər. Düşünürəm ki, biz bu istiqamətdə birlikdə işləyə bilərik. Əgər sərmayələrlə bağlı istək olarsa biz bunu yalnız alqışlayacağıq. Əgər belə arzu yoxdursa, bu magistralın yaxın iki il ərzində tam işə düşməsi üçün mümkün yeni yüklərin səfərbər edilməsi sahəsində birgə işləyə bilərik".

Prezident İlham Əliyev çıxışının sonunda bunları deyib: "Əlbəttə, haqqında danışmaq istədiyim üçüncü mövzu regionda təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi məsələsidir. Bu gün artıq çıxışlarda bununla əlaqədar narahatlıqlar səsləndi. Biz hamımız bunu yaxşı görürük, müşahidə edirik. Terrorizmə qarşı mübarizədə bütün dünya birliyinin çoxplanlı əməkdaşlığı olmadan dünyada heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz. MDB ölkələri, hər halda bu ölkələrin əksəriyyəti beynəlxalq terrorizmin nə demək olduğunu öz üzərlərində hiss ediblər. Bu təhlükə bu gün region ölkələri üçün bilavasitə risklərin və bizim hamımız üçün potensial risklərin mənbəyidir. Buna görə də bugünkü mərhələdə beynəlxalq terrorizmə qarşı mübarizə bütün ölkələr üçün prioritet olmalıdır və biz yalnız səylərimizi birləşdirməklə qarşıya qoyulmuş məqsədlərə çata bilərik. Əlbəttə, risklərin minimuma endirilməsi, habelə beynəlxalq terrorizmi doğuran səbəblərin üzə çıxarılması, aşkar edilməsi istiqamətində çox işləmək lazımdır. Əlbəttə, bunun çox böyük kənar səbəbləri var, terroryönümlü müəyyən qruplar, qruplaşmalar maliyyələşdirilir. Amma, həmçinin daxili səbəblər də mövcuddur. Daxili səbəb isə yoxsulluq, savadsızlıq, gerilik, radikalizm, fundamentalizm, sosial ədalətsizlikdir. Əgər bu və ya digər ölkədə bu obyektiv səbəblər yoxdursa, orada xaricdən göstərilən bütün səylərə baxmayaraq terrorizmin yetişməsi üçün zəmin yaratmaq çox çətin olacaq. Buna görə də sosial-iqtisadi xarakterli məsələlərin, təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizmə qarşı mübarizə məsələlərinin həlli üzərində səylərin birləşdirilməsi – bütün bunlar bu gün ölkələrimizin əsas gündəliyini təşkil edir. Biz region ölkələri ilə sülh və həmrəylik şəraitində yaşamaq, inkişaf etmək, uşaqların savadlı, təhsilli, sağlam böyüməsini istəyirik. Bunun üçün bizə təhlükəsizlik lazımdır. Buna görə də Azərbaycan öz tərəfindən beynəlxalq terrorizmlə mübarizə üçün bundan sonra da bütün səylərini əsirgəməyəcək.

Düşünürəm ki, burada səslənən tezislər, dövlət başçılarının çıxışları bizim bu məsələyə yenidən və daha praktiki nöqteyi-nəzərdən baxmağımız, gələcəkdə ölkələrimizin təhlükəsizliyi ilə bağlı daha nə etməyin lazım olduğunu müəyyənləşdirməyimiz üçün yaxşı bazadır".

***

Sonra iclas işini geniş tərkibdə davam etdirib.

Geniş tərkibdə iclasın əvvəlində Belarus Prezidenti Aleksandr Lukaşenko MDB çərçivəsində xalqların və dövlətlərin dostluğuna verdiyi töhfəyə görə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə "Xalqlar Dostluğu" ordenini təqdim edib.

Məhdud tərkibli görüşdə MDB-nin gələcək inkişafı ilə bağlı cari məsələlərin müzakirə edildiyini deyən Nursultan Nazarbayev bildirib ki, son vaxtlar dünyanın qlobal dəyişikliklərə məruz qaldığı zamanda MDB də həmin şəraitə uyğun fəaliyyət göstərməlidir. Buna görə, bugünkü iclasda müzakirə olunan məsələlərdən biri təhlükəsizlik sahəsində beynəlxalq vəziyyətdir.

Qazaxıstan Prezidenti BMT-nin razılığı ilə ümumdünya terrorizmə qarşı mübarizə şəbəkəsinin yaradılmasının vacibliyini bildirib, bu sahədə MDB-nin antiterror mərkəzinin potensialından maksimum yararlanmağın zəruriliyini qeyd edib. O vurğulayıb ki, bu gün MDB dövlət başçılarının beynəlxalq terrorizmə qarşı BMT-nin yaradılmasının 70 illiyi münasibətilə qəbul etdiyi bəyanat olduqca əhəmiyyətlidir.

MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev bildirib ki, məhdud tərkibli iclasda toplantının gündəliyi və reqlamenti təsdiqlənib, iki mühüm bəyanat - BMT-nin yaradılmasının 70 illiyi və beynəlxalq terrorizmlə mübarizə ilə əlaqədar MDB dövlət başçılarının bəyanatları qəbul edilib. Həmçinin MDB dövlət başçıları Şurasının növbəti iclasının 2016-cı il sentyabrın 16-da Qırğızıstanda keçirilməsi qərara alınıb.

Sonra Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın 30 illiyi ilə bağlı dövlət başçılarının müraciəti müzakirə olunub. Belarusun fövqəladə hallar naziri Vladimir Vaşenkonun məlumatından sonra qəzanın 30 illiyi ilə əlaqədar MDB ölkələrinin birgə müraciətinin dünya ictimaiyyətinə çatdırılması təklif edilib və bununla bağlı qərar qəbul olunub.

Daha sonra iclasda MDB-yə üzv ölkələrin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Şurası və Hava Hücumundan Müdafiə Koordinasiya Komitəsinin rəhbərlərinin namizədliyi təsdiqlənib.

MDB Dövlət Başçıları Şurasının iclası sənədlərin imzalanması ilə yekunlaşıb.

## Azərbaycan energetiklərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycanda energetika sahəsində səmərəli fəaliyyətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayev Məmmədhəsən Allahverdi oğlu
Aqayev Aşəd Aslan oğlu
Bəhrəmov Şamid Əbülfəz oğlu
Cəfərov Səxavət İsmayıl oğlu
Əhmədov Kamil Aydın oğlu
Əliyev Vüqar İsmayıl oğlu
Əsgərov Nizami Hüseyn oğlu
Həmidov Qalib İnsaf oğlu
Hüseynov Etibar Şəmil oğlu
Hüseynov Vahid Hüseyn oğlu
Hüseynov Vüsal Musa oğlu
Kərimli Cabar Seyfulla oğlu
Kiçibəyov Vyaçeslav Ramazanoviç
Mahmudov Cəsman Kərim oğlu
Məmmədli Saleh Süleyman oğlu
Mənsimov Əlibala Xanbala oğlu
Mirzəyev Ələmdar Mənsimalı oğlu
Mustafayev Azad Fəxrəddin oğlu
Nəbibəyli Vüqar Adil oğlu
Qafarlı Etibar Məmməd oğlu
Qafarov Rəhim Abbas oğlu
Süleymanov Nəsir İsgəndər oğlu
Vəliyev Rizvan Şamı oğlu
Yunusov Zeynal Yunus oğlu
Yusifov Ramil Əli oğlu
Zeynalov Zeynal Mirzəbala oğlu.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 oktyabr 2015-ci il.*

*FAKT... HADİSƏ... XƏBƏR...*

## "Opinionway": Azərbaycan əhalisinin 78,8 faizi Prezident İlham Əliyevin fəaliyyətindən çox razıdır

♦ **Fransanın "Opinionway" araşdırma şirkəti Milli Məclisə seçkilər ərəfəsində Azərbaycanda ictimai rəy sorğusu keçirib.**

AZƏRTAC xəbər verir ki, respondentlərin 63 faizi noyabrın 1-də keçiriləcək parlament seçkilərində mütləq iştirak edəcəyini, 12 faizi ola bilsin iştirak edəcəyini, 7,7 faizi ola bilsin iştirak etməyəcəyini, 9 faizi iştirak etməyəcəyini bildirib, 8,3 faizi isə bu barədə hələ qərar vermədiyini deyib. Sorğunun nəticələrinə görə, ölkədə seçkilərə hazırlıq kampaniyası respondentlərin 76,5 faizi üçün maraqlıdır.

"Milli Məclisə keçiriləcək seçkilərdə hansı siyasi qüvvənin namizədini dəstəkləmək fikrindəsiniz" sualına rəyi soruşulanların 71,7 faizi iqtidar partiyasının və iqtidaryönümlü partiyaların namizədlərini, 6 faizi müxalifət partiyalarının namizədlərini, 16,4 faizi bitərəf namizədləri dəstəkləyəciyini deyib, 5,9 faizi isə cavab verməkdə çətinlik çəkib.

"Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti Sizi nə dərəcədə qane edir" sualını respondentlərin 78,8 faizi "çox qane edir" deyə cavablandırıb.

Ölkənin səsvermə hüququ olan 1200 vətəndaş arasında aparılan sorğunun nəticələrinə görə, respondentlərin 71,4 faizi Azərbaycanda milli təhlükəsizliyin təmin olunmasından, 71,2 faizi korrupsiya ilə, 68,4 faizi cinayətkarlıqla mübarizədən, 69,8 faizi insan hüquqlarının vəziyyətindən çox razı qaldığını deyib.

Rəyi soruşulanların 66,5 faizi hazırda Azərbaycanın ən vacib probleminin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olduğunu bildirib.

## BU NÖMRƏDƏ




**Dayanıqlı elektrik enerjisi sistemi ölkəmizin sosial-iqtisadi inkişafına xidmət edir**

2





**Yenidənqurma işləri davam etdirilir**

3


## Azərbaycan ilə Kosta-Rika arasında enerji sahəsində əməkdaşlıq imkanları müzakirə edilib

♦ **Azərbaycan ilə Kosta-Rika Respublikası arasında iqtisadi əlaqələrin inkişafı, xüsusilə enerji sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.**

Energetika Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın energetika naziri Natiq Əliyev oktyabrın 19-da Kosta-Rikanın xarici işlər və etiqad naziri Manuel Qonzales Sanzın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Latın Amerikası dövlətləri ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verildiyini bildirən energetika naziri N.Əliyev enerji ölkəsi kimi Azərbaycanın böyük tarixə və neft-qaz sənayesi sahəsində zəngin təcrübəyə malik olduğunu diqqətə çatdırıb.

Nazir yeni neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycanın qazandığı uğurlardan danışıb. Bildirib ki, özünün enerji təhlükəsizliyini təmin etmiş Azərbaycanın indi neft, qaz, elektrik enerjisi ixrac etdiyini diqqətə çatdıran nazir "Cənub" qaz dəhlizinin əhəmiyyəti və bu nəhəng layihənin reallaşdırılması istiqamətində görülən işlərdən də danışıb. O, əsas hədəf kimi enerji səmərəliliyi məsələsinə, elektrik enerjisinin paylanma sisteminin yeniləşdirilməsinin vacibliyinə toxunub.

Kosta-Rikanın xarici işlər və etiqad naziri Manuel Qonzales Sanz isə ölkəsinin iqtisadiyyatının turizm, kənd təsərrüfatı və elektrik avadanlıqlarının istehsalı və ixracı üzərində qərarlaşdığını deyib. Nazir iki ölkə arasında müxtəlif sahələrdə, xüsusilə enerji sektorunda əlaqələrin inkişaf etdirilməsi üçün mövcud imkanlardan istifadə etmək məqsədilə qarşılıqlı görüşlərin, səfərlərin təşkilini vacib sayıb.

aktual

# Prezident İlham Əliyev Sabunçu Məhkəmə Kompleksinin açılışında iştirak edib



♦ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Sabunçu Məhkəmə Kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısı əvvəlcə kompleksin görüntülərini, həmçinin müasir məhkəmə komplekslərinin binalarının layihələrini əks etdirən stendlərə baxdı.

Prezident İlham Əliyev Sabunçu Məhkəmə Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.

Ədliyyə naziri Fikrət Məmmədov yeni binanın inşası və burada yaradılan yüksək şərait barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, bina Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində inşa olunub. Kompleksin ümumi sahəsi 9 min kvadratmetr olan yeddimərtəbəli binasının inşasına 2012-ci ilin oktyabrında başlanılıb. Tikinti işləri ən müasir standartlara uyğun aparılıb.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb. Kompleksdə Sabunçu Rayon Məhkəməsi və 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi yerləşir.

Prezident İlham Əliyev binadakı məhkəmə zalları ilə tanış oldu.

Məlumat verildi ki, kompleksdə 14 məhkəmə zalı fəaliyyət göstərir. Zallarda məhkəmə prosesinin iştirakçıları üçün hər cür şərait yaradılıb. Burada vəkillər, dövlət ittihamçıları, şahidlər və icra məmurları üçün otaqlar ayrılıb. Azərbaycan Prezidentinin "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" 2014-cü il 13 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar kompleksdə elektron məhkəmənin tətbiqi üçün bütün zəruri infrastruktur var.

Dövlətimizin başçısı Sabunçu Məhkəmə Kompleksində yaradılan şəraitdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

## TANAP üzrə tikinti işləri fasiləsiz şəkildə davam etdirilir

**♦ Trans-Anadolu qaz boru kəməri – TANAP layihəsi üzrə tikinti işləri fasiləsiz şəkildə davam etdirilir. Martdan başlayan inşaat işləri ilə əlaqədar qaz kəmərinin 1350 kilometr hissəsində borular tikinti yerinə çatdırılıb və qaynaq işlərinə başlanıb. Layihə üzrə işlər hətta qrafiki qabaqlayır və bu da Azərbaycanın daha bir iqtisadi–siyasi zəfəri kimi qiymətləndirilir.**

AZƏRTAC xəbər verir ki, bu barədə energetika naziri Natiq Əliyevin "Respublika" qəzetində dərc olunan məqaləsində məlumat verilib. Nazir qeyd edib ki, "Trans-Adriatik" (TAP) boru kəməri layihəsinin reallaşdırılması istiqamətində Yunanıstan, Albaniya və İtaliyada hazırlıq işləri görülür və kəmərin inşasına başlanması 2016-cı ilin əvvəlinə proqnozlaşdırılır.

## İqtisadiyyat və Sənaye Nazirliyi yoxlamaları dayandırıb

**♦ Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlıİqtisadiyyat və Sənaye Nazirliyində geniş kollegiya iclası keçirilib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Abbas Əliyev "APA-Economics"ə bildirib ki, iclasda insanların həyat və sağlamlığının qorunması halları ilə bağlı zəruri nəzarət tədbirləri istisna olmaqla,İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən sahibkarlıq subyektlərində aparılan bütün yoxlamaların dayandırılması qərara alınıb.

MİLLİ MƏCLİSDƏ

# Dördüncü çağırış üzrə payız sessiyasının son plenar iclası keçirilib

**♦ Oktyabrın 20-də Milli Məclisin IV çağırış üzrə payız sessiyasının son plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Oqtay Əsədov iclası açdıqdan sonra gündəlik təsdiq olunub.**



İclasda "Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında", "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2016-cı il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2016-cı il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2016-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələrinə baxılıb.

Həmçinin deputatlar Milli Məclisin 2016-cı il üçün xərclər smetası haqqında, Hesablama Palatasının 2016-cı il üçün xərclər smetası haqqında məsələləri nəzərdən keçiriblər.

Milli Məclis Vergi, Mülki Prosessual, Miqrasiya, Cinayət, İnzibati Xətalar məcəllələrində, "Dövlət rüsumu haqqında", "İcra haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini müzakirə edib.

İclasda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) tələblərinin həyata keçirilməsi barədə", "Azərbaycan Respublikasının Hökuməti ilə San Marino Respublikasının Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında" sazişlərin, "Azərbaycan Respublikasının Hökuməti ilə San-Marino Respublikasının Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə qanun layihələrinə baxılıb.

Bundan başqa, "Məhkəmələr və hakimlər haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında", "İnformasiya əldə etmək haqqında", "Kütləvi informasiya vasitələri haqqında", qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə də baxılıb.

Deputatlar, eyni zamanda, Bakı və Gəncə Apelyasiya məhkəmələri hakimlərinin təyin edilməsi məsələlərini nəzərdən keçiriblər.

Milli Məclis "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanun layihəsini də müzakirə edib.

SAHİBKARLIQ

# Yeni mərhələ başlanır

**♦ Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının yekunlarına dair iclasındakı çıxışında sahibkarlıq sahəsində yoxlamalardan çoxsaylı şikayətlərin daxil olmasını, yoxlamaların sayının, eləcə də lisenziyaların sayının həddindən artıq çox olmasını, göstərilən sahədə sui-istifadə hallarını qeyd edib, belə halların qarşısının alınacağını, nəticə çıxarmayanların isə cəzalandırılacağını bildirib.**

Oktyabrın 19-da Prezident İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi göndərilib və artıq Milli Məclis bu qanunu təsdiq edib. Qanun layihəsinə əsasən 2015-ci il noyabrın 1-dən etibarən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılır.

Eyni zamanda lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı bütün lisenziyaların İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsi nəzərdə tutulub.

Göründüyü kimi, artıq sahibkarlığın inkişafında yeni və olduqca mühüm mərhələ başlayır. Yeni mərhələ xarici faktorların milli iqtisadiyyata təsirlərini minimuma endirəcək ki, bu da dayanıqlı iqtisadiyyatın möhkəm təməllər üzərində formalaşmasına təkan verəcək.

Prezidentin son fərmanı oliqarxlaşmış məmurlara, vəzifəyə xalqa xidmət yox, şəxsi məqsədlərini həyata keçirmək vasitəsi kimi baxan məmurlara böyük zərbədir. Cənab Prezidentin dəfələrlə etdiyi xəbərdarlıqdan nəticə çıxarmayan məmurlar nəhayət anladılar ki, vəzifədə olmaq üstünlük deyil.

Ölkə başçısı hər dəfə olduğu kimi, bu dəfə də sahibkarların tərəfini tutdu. Onlara imkan yaratdı ki, həm özləri gəlir əldə edə bilsinlər, həm işçi heyətini saxlaya bilsinlər, həm də ölkə iqtisadiyyatının inkişafına təkan versinlər.

İnanırıq ki, sahibkarlar ölkə başçısının etimadından sui-istifadə etməyəcək, vergiləri vaxtlı-vaxtında ödəyəcək, Prezidentin qayğısını şəxsi üstünlük kimi qəbul etməyəcəklər.

Unutmayacaqlar ki, heç kim, o cümlədən onlar toxunulmaz deyillər. Özünü toxunulmaz hesab edənlərin isə aqibəti pis, özü də çox pis olur.

# Dayanıqlı elektrik enerjisi sistemi ölkəmizin sosial-iqtisadi inkişafına xidmət edir

**Etibar PİRVERDİYEV,**
*"Azərenerji" ASC-nin prezidenti*

**♦ Hazırda dünyada elektrik energetikası sahəsinin yeni inkişaf meyilləri özünü göstərməkdədir ki, bu da hər bir ölkənin təkcə yaxın müddətdə deyil, həm də gələcək onilliklərdə dayanıqlı və keyfiyyətli enerji təchizatı üçün mühüm əhəmiyyətli qərarlar qəbul etməsi zərurəti ilə bağlıdır. Azərbaycanda müxtəlif tarixi dövrlərdə bu sahədə verilən qərarlar respublikamızın hazırkı müstəqil elektrik enerjisi sisteminin formalaşmasını təmin etmişdir.**



Hələ ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə Mingəçevirdə Cənubi Qafqazın ən iri istilik elektrik stansiyasının təməlinin qoyulması və tikintisinin uğurla başa çatdırılması, digər yeni generasiya güclərinin işə salınması, enerjiötürücü sistemin köklü şəkildə inkişaf etdirilməsi, enerjisistemin səmərəli idarə olunması üçün yüksək ixtisaslı energetiklər nəslinin yetişdirilməsi tarixi nailiyyət kimi bu gün də müstəqil dövlətimizin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Ulu öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də enerjisistemin cari fəaliyyəti və perspektivləri daim diqqət mərkəzində olmuş, 90-cı illərin əvvəllərindəki siyasi-iqtisadi böhran, naşı idarəçilik nəticəsində çətin vəziyyətə düşən və hətta iflas təhlükəsi ilə üzləşən bu mühüm sahənin dirçəlişi, ölkənin elektrik enerjisinə tələbatının ödənilməsi üçün bütün zəruri tədbirlər həyata keçirilmişdir. Məhz həmin dövrdə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında xarici sərmayələrin cəlb edilməsi ilə mövcud elektrik stansiyalarının yenidən qurulması və modernləşdirilməsi layihələri icra edilmişdir. Enerjisistemin generasiya gücünün artırılmasının, ötürücü və paylayıcı şəbəkələrin inkişafının zəruriliyini əsas götürərək ölkənin energetika təhlükəsizliyinin təminatına yönələn strateji kurs qəbul edilmişdir. Bu kurs yanacaq-energetika kompleksində və regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarında konkret təcəssümünü tapmışdır. İri beynəlxalq bankların kreditləri ilə yanaşı, dövlət büdcəsindən ayrılan maliyyə vəsaitləri elektrik enerjisi sektorunun inkişafına, onun maddi-texniki bazasının yeniləşdirilməsinə yönəldilmişdir.

Eyni zamanda, enerjisistemin istehsal fondlarının inkişaf proqramlarının qəbul edilməsi ilə yanaşı, onun idarəetmə strukturunun islahatı da aparılmışdır. Mövcud dövlət şirkətinin bazasında səhmdar cəmiyyət təsis edilmiş, onun səmərəli fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Görülən tədbirlər nəticəsində enerjisistemin qarşısında duran bir çox məsələlər öz həllini tapmışdır.

Köhnə elektrik stansiyalarının yenidən qurulmasının və yeni elektrik stansiyalarının tikintisinin hesabına yeni generasiya gücləri istismara verilmişdir. Həyata keçirilmiş məqsədyönlü tədbirlər ümumi generasiya gücünü 1,5 dəfədən çox artırmağa imkan vermişdir. Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə respublikamızda 3500 MVt-yə yaxın generasiya gücü işə salınmışdır.

Bu gün ulu öndər Heydər Əliyevin strateji inkişaf xəttini praqmatik və yenilikçi, təşəbbüskar və qətiyyətli siyasi lider, möhtərəm Prezident cənab İlham Əliyev yeni dövrün tələblərinə və xalqımızın maraqlarına uyğun bir şəkildə ardıcıllıqla davam etdirir. Hər bir sahədə olduğu kimi, elektrik energetikasında da son 12 ildə baş vermiş misilsiz keyfiyyət və kəmiyyət dəyişiklikləri ölkəmizin vüsətli sosial-iqtisadi inkişafının mühüm nailiyyətlərindəndir.

Dövlət başçısının qərar və göstərişləri əsasında generasiya potensialının yenilənməsi və artırılması nəticəsində ölkəmiz elektrik enerjisinin idxalından imtina etmişdir. Bu sahədə qonşu ölkələr ilə əməkdaşlıq yalnız mübadilə məqsədi daşıyır. Generasiya güclərinin müasirləşdirilməsi enerjisistemin texniki-iqtisadi göstəricilərinin daha da yaxşılaşdırılmasına, hər kilovat-saat elektrik enerjisinin istehsalına yanacaq sərfiyyatının azaldılmasına imkan vermişdir.

Keçən dövr ərzində, uzunmüddətli istismarda olan yüksəkgərginlikli və paylayıcı elektrik şəbəkələrinin bərpasına da böyük diqqət ayrılmışdır. Demək olar ki, enerjisistemin bütün yüksəkgərginlikli yarımstansiyalarında avadanlıqlar ən müasirləri ilə əvəz edilmişdir.

Yenidənqurma zamanı xüsusi diqqət Abşeron yarımadasında elektrik şəbəkələrinin dayanıqlılığının təminatına ayrılmışdır. Bu regionda yarımstansiyaların və xətlərin əksəriyyəti 80 ildən çox istismarda idi. Bu səbəbdən onların tam yenidənqurulması və müasirləşdirilməsi tələb olunurdu. Odur ki, bütün belə obyektlərdə həmin işlər yerinə yetirilmişdir.

Son illər ərzində respublikada, xüsusilə Bakıda və onun ətrafında, nəqliyyat infrastrukturu güclü inkişaf etdirilmişdir. Bununla əlaqədar olaraq, elektrikötürmə xətlərinin traslarının dəyişilməsi və yeni xətlərin, yarımstansiyaların tikintisi üzrə işlərin böyük hissəsi yerinə yetirilmişdir. Respublika ərazisində ilk dəfə Bakı şəhərində yeraltı 110 kV gərginlikli yarımstansiya tikilmişdir. Eyni zamanda, respublikanın müxtəlif regionlarında 500, 330, 220 və 110 kV-lik yarımstansiyalar və elektrik ötürücü xətləri inşa edilmişdir. Görülmüş işlər enerjinin keyfiyyətini artırmış, enerjisistemin dayanıqlılığını və təhlükəsizliyini daha da möhkəmləndirmişdir.

Enerjisistemin fəaliyyətinin dayanıqlılıq səviyyəsinin sonrakı mərhələdə yüksəlməsi optik-lifli kommunikasiyalar vasitəsi ilə energetika obyektlərinin mərkəzləşdirilmiş idarəetmə sisteminin, SCADA-nın inkişafı ilə təmin olunmasıdır. Bu layihəyə uyğun olaraq yaradılan sistem real vaxt rejimi ilə yüksəkgərginlikli şəbəkələrdə və elektrik stansiyalarında bütün prosesləri izləməyə, vəziyyəti qiymətləndirməyə, təhlükəli vəziyyətləri lokallaşdırmağa və aradan qaldırmağa imkan verir. Enerji sistemində bu layihə artıq başa çatdırılmışdır.

Dövlət başçısının rəhbərliyi ilə elektrik enerjisi sistemində mühüm islahatlar və geniş-miqyaslı quruculuq işləri həyata keçirilir. Ölkə enerjisisteminin yeni inkişaf mərhələsi kimi dəyərləndirilən bu dövr 2004-2008-ci, 2009-2013-cü və 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafına, 2005-2015-ci illərdə yanacaq-enerji kompleksinin inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin, respublikamızda elektrik enerjisi təminatının yaxşılaşdırılması sahəsində dövlət başçısının göstəriş və tapşırıqlarının uğurla yerinə yetirilməsi ilə əlamətdardır. Bütün bunların nəticəsində 12 il ərzində Azərbaycanın müxtəlif regionlarında ümumi gücü 2300 MVt-dan artıq olan 18 yeni elektrik stansiyası istismara verilmiş, 10 min kilometrdən artıq elektrik verilişi xətləri, 1500-dən çox yarımstansiya inşa edilmiş və yenidən qurulmuşdur.

Belə ki, 2003-2015-ci illərdə enerji sistemində hər birinin gücü 87 MVt olan Astara, Şəki, Xaçmaz, Naxçıvan, hər birinin gücü 105 MVt olan Bakı, Şahdağ, gücü 300 MVt olan Səngəcal, 525 MVt gücündə Sumqayıt, 780 MVt gücündə "Cənub" elektrik stansiyaları, 5 MVt gücündə Vayxır, 22 MVt gücündə Biləv, hər birinin gücü 25 MVt olan Füzuli, Taxtakörpü və Şəmkirçay, 20,5 MVt gücündə Arpaçay-1, 3,1 MVt gücündə "Göyçay", gücü 1,4 MVt olan Arpaçay-2 və digər su elektrik stansiyaları istismara verilmişdir.

Eyni zamanda, gücü 64 MVt olan Naxçıvan qaz-turbin elektrik stansiyasında yenidənqurma işləri aparılmış, stansiya modernləşdirilmiş və dizel yanacağından qaz yanacağına keçirilərək istismara verilmişdir. Bütün bunlardan əlavə, Azərbaycan İES-in enerji bloklarının yenidənqurulması işləri həyata keçirilərək stansiyanın imkan gücü artırılmışdır.

Hazırda dövlət başçısı Azərbaycanın inkişaf etmiş ölkələr sırasına daxil olmasını qarşıya əsas məqsədlərdən biri kimi qoymuşdur. Bu istiqamətdə həyata keçirilən siyasətin strateji məqsədlərindən biri də dünya təsərrüfat sistemində ölkəmizin maraqlarının gözlənməsi şərti ilə inteqrasiyasının təmin olunmasıdır. Bu gün elektrik enerjisi sistemində bu məqsədlə müvafiq işlər davam etdirilir.

Bunlarla yanaşı, "Şimal" elektrik stansiyasında gücü 409 MVt olan II enerji blokunun, Lerik və Yardımlı rayonlarının daha dayanıqlı enerji təchizatı layihəsi üzrə gücü 16,5 MVt olan elektrik stansiyasının, Mingəçevir və Varvara su elektrik stansiyalarının yenidənqurulması işlərinin də başa çatdırılması gözlənilir.

Hazırda ölkədə elektrik enerjisi ilə təminat məsələlərinin həllində kiçik su elektrik stansiyalarının tikintisinə xüsusi diqqət göstərilməlidir. Bu elektrik stansiyaları enerjisisteminin generasiya güclərinin strukturunu əhəmiyyətli şəkildə yaxşılaşdıracaq, pik generasiyasının payı artacaqdır. Birincisi, bunun nəticəsində enerji sisteminin manevretmə qabiliyyəti yaxşılaşacaq, elektrik stansiyalarının işinin optimallaşmasına imkan verəcək, ikincisi elektrik enerjisinin istehsalına yanacağın sərfi azalacaqdır.

Azərbaycanda çoxlu sayda kiçik çay və axınlar var və onların üzərində belə elektrik stansiyalarının tikintisi iqtisadi nöqteyi-nəzərdən məqsədəuyğundur. Bu cür elektrik stansiyalarında mürəkkəb avadanlığın olmaması texniki istismar məsələlərini əhəmiyyətli dərəcədə sadələşdirir. Alternativ elektroenergetikanın inkişafının böyük gələcəyi və əhəmiyyəti var və bu istiqamətdə işlər davam etdirilir. Ümumiyyətlə, kiçik su elektrik stansiyalarının tikintisi üzrə işlər müəyyən edilmiş qrafikə uyğun aparılır. Onların mərhələli şəkildə istismara verilməsi nəzərdə tutulur.

Bu gün ölkə elektrik enerjisi sistemində generasiya gücləri ilə bağlı problem yoxdur. Lakin enerjisistemin dayanıqlılığını və təhlükəsizliyini xarakterizə edən amillərdən biri olan enerjinin ötürülməsi sistemində müəyyən çətinliklər var. Hazırda dövlət başçısının tapşırığına əsasən enerjinin ötürülməsi sistemində və paylayıcı şəbəkələrdə yeniləşmə proseslərinin aparılması istiqamətində məqsədyönlü işlər aparılır. Məlum olduğu kimi, ötən dövr ərzində "1-ci, 2-ci Mingəçevir EVX-nin yenidənqurulması" layihəsi çərçivəsində gücü 360 MVA olan 220 kV-lik Ağdaş YS-nin, 220 kV-lik ikidövrəli Mingəçevir ES - Abşeron YS HX-nin tikintisi və 500 kV-lik "Abşeron" yarımstansiyasında 400 MVA gücündə 3-cü avtotransformatorun quraşdırılması və sxemə qoşulması üzrə işlər başa çatdırılmışdır. Eyni zamanda gərginliyi 330 kV-lik olan Goranboy paylayıcı məntəqəsi istifadəyə verilmişdir. 220 kV-lik "Şimal ES-Hövsan YS" hava xəttinin tikintisi, gücü 360 MVA olan 220 kV-lik "Zabrat" yarımstansiyasının inşası, 220 kV-lik ikidövrəli "Şimal ES-Zabrat YS-Sumqayıt ES" hava xəttinin tikintisi layihəsi üzrə işlər tam başa çatdırılmışdır və bir hissəsi şəbəkəyə qoşulmuşdur. Gücü 409 MVt olan "Şimal-2" elektrik stansiyası istismara veriləndən sonra yarımstansiya və elektrik verilişi xətləri tam şəkildə şəbəkəyə qoşulacaqdır.

2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı ümumi uzunluğu 80 kilometrədək olan 110 kV-llik hava xəttinin yenidənqurulması üzrə işlər müəyyən edilmiş qrafik üzrə davam etdirilir.

Əldə edilən uğurlar respublikanın elektrik enerjisi sisteminin dayanıqlılığını və təhlükəsizliyini daha da möhkəmləndirir və Azərbaycanın regionda elektrik enerjisinin ixracı üzrə mühüm ölkəyə çevrilməsinə imkan verir. İnamla deyə bilərik ki, elektrik energetikası sahəsində həyata keçirilən mükəmməl dövlət siyasəti enerjisistemin bundan sonra da sosial-iqtisadi inkişafdakı əvəzedilməz rolunun layiqincə yerinə yetirməsini təmin edəcəkdir.

SƏRGİ

# "BakuBuild" sərgisində dünyanın 30 ölkəsindən 535 şirkət iştirak edir

**♦ "BakuBuild-2015" regionda ən böyük tədbirlərdən biridir. AZƏRTAC xəbər verir ki, bunu Bakı Ekspo Mərkəzində oktyabrın 21-də açılmış "BakuBuild-2015" 21-ci Azərbaycan Beynəlxalq İnşaat sərgisinə həsr olunmuş mətbuat konfransında İTE Qrup şirkətinin icraçı direktoru Edvard Stroon bildirib.**

Oltyabrın 24-dək davm edəcək sərginin əhəmiyyətindən söz açaraq E.Stroon iştirakçıların sayının ilbəil artdığını vurğulayıb. Onun sözlərinə görə, sərgi ölkənin inkişafının barometri, onun tərəqqisinin əyani göstəricidir.

E.Stroon diqqətə çatdırıb ki, builki sərgidə dünyanın 30 ölkəsindən 535 şirkət iştirak edir, onların da 50 faizi xarici şirkətlərdir. "BakuBuild" sərgisinin ənənələrindən biri də milli stendlərin fəal iştirakıdır. Belə ki, bu il 7 ölkə öz milli pavilyonlarını təqdim edir. Həmin ölkələr arasında sərginin daimi iştirakçıları - Almaniya, İtaliya, İran, İspaniya, BƏƏ, eləcə də debütantlar - Çexiya və Hindistan yer alır.

Azərbaycan bazarına həmişəki kimi böyük maraq göstərən Türkiyə istehsalçıları sərgidə iştirak üçün geniş sahəyə malikdirlər. Bütün dünyada iqtisadi vəziyyətin mürəkkəb olmasına baxmayaraq, "BakuBuild" sərgisinin tərkibi yeni şirkətlər sayəsində daha da zənginləşib.

"BakuBuild" sərgisinin meneceri Maya Qafarlı deyib ki, sərgi Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, eləcə də Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən dəstəklənir.

M.Qafarlı sərgidə nümayiş etdirilən məhsulların əvvəlki illərlə müqayisədə çeşidinin artdığını və yalnız bu il dünya bazarına daxil olacaq bir sıra yeni məhsulların təqdim olunacağını bildirib.

Sərginin təşkilatçısı qismində "Iteca Caspian" və onun Böyük Britaniyalı tərəfdaşı "ITE Group Plc" şirkətləri çıxış edirlər.



## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə "Azərenerji" ASC-nin kollektivi adından müraciət

Möhtərəm cənab Prezident!

Respublikamızın hər yerində elektrik energetikası sahəsinin çoxsaylı əməkçiləri Sizin Sərəncamınızla təsis edilmiş 20 oktyabr "Energetiklər Günü" peşə bayramını yüksək işgüzarlıq əhval-ruhiyyəsi ilə qeyd edirlər. Belə əlamətdar tarixi məqamda Azərbaycanın müstəqil elektrik energetikası sisteminin yaradıcısı olan Ümummilli Liderimiz Heydər Əliyevin şərəfli əməllərini bir daha yad edir, onun nurlu xatirəsi, ölməz ruhu qarşısında ehtiramla baş əyirlər.

Möhtərəm cənab Prezident!

Siz Ulu Öndərin strateji inkişaf xəttini yeni dövrün tələblərinə və xalqımızın maraqlarına uyğun bir şəkildə ardıcıllıqla davam etdirirsiniz. Sizin rəhbərliyiniz altında hər bir sahədə olduğu kimi, elektrik enerjisi sistemində də son 12 ildə baş vermiş misilsiz keyfiyyət və kəmiyyət dəyişiklikləri ölkəmizin sürətli sosial-iqtisadi inkişafının mühüm nailiyyətlərindəndir.

Sizin qərar və göstərişləriniz əsasında yeni elektrik stansiyalarının müxtəlif bölgələrdə inşa edilməsi enerjisistemin səmərəlilik göstəricilərini yüksəltməklə yanaşı, həmin bölgələrin sosial-iqtisadi inkişafına da güclü təsir göstərmişdir.

Hazırda mövcud istehsal respublikamızın tələbatını tam həcmdə ödəməklə yanaşı, qonşu ölkələrə də elektrik enerjisi ixrac etməyə imkan verir. Bu istiqamətdə də mühüm işlər görülməkdədir.

Möhtərəm cənab Prezident!

Sizin Sərəncamınızla peşə bayramı ərəfəsində energetiklərdən bir qrupunun "Tərəqqi" medalı ilə təltif edilməsi bizi bir daha sevindirmişdir. Energetiklərin məsul və şərəfli əməyinə daim verdiyiniz yüksək qiymətə görə Sizə bir daha dərin təşəkkürümüzü bildiririk. Əmin ola bilərsiniz ki, Sizin rəhbərliyiniz altında Azərbaycanın işıqlı, firavan gələcəyi naminə respublika energetikləri bundan sonra da böyük səylə çalışacaq, elektrik enerjisi ilə təminatın səviyyəsinin yüksəldilməsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

**Müraciət "Azərenerji" ASC-nin kollektivinin 20 oktyabr 2015-ci il tarixdə "Energetiklər Günü" peşə bayramına həsr olunmuş tədbirində qəbul edilmişdir.**

# Enegetiklər peşə bayramlarını qeyd ediblər







♦ **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il tarixli sərəncamı ilə hər il oktyabrın 20-də ölkəmizin elektrik enerjisi sisteminin çoxsaylı kollektivi peşə bayramını qeyd edir. Hər il olduğu kimi bu il də energetiklər peşə bayramını böyük ruh yüksəkliyi ilə qarşılayıblar. Bayram tədbiri Azərbaycan Respublikası Energetika Nazirliyinin, "Azərenerji" ASC-nin, "Azərişıq" ASC-nin, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin rəhbərlərinin və nümayəndələrinin Fəxri xiyabanda Ulu Öndərin məzarının və Şəhidlər xiyabanının ziyarəti ilə başlanıb.**





Sonra "Azərenerji" ASC-də Energetiklər günü münasibətilə yığıncaq keçirilib. Tədbir iştirakçılarını peşə bayramı münasibərilə təbrik edən "Azərenerji" ASC-nin prezidenti Etibar Pirverdiyev çıxışında deyib ki, hələ Sovet İttifaqının tərkibində olduğu dövrdə respublikamızın sənaye potensialının gücləndirilməsinin enerjisistemin genişləndirilməsi ilə birbaşa bağlı olduğunu görən Heydər Əliyev bu məsələyə xüsusi diqqət yetirib və elektroenergetikanın bugünkü inkişafının təməlini qoyub. Ulu Öndərin səyi nəticəsində həmin illərdə elektrik enerjisinin istehsalı və ötürülməsi sahəsində görülmüş çox böyük işlər barəsində məlumat verən natiq Cənubi Qafqaz regionunda ilk ən böyük istilik elektrik stansiyasının Mingəçevirdə tikilib istifadəyə verilməsini, həmin bu "Azərbaycan" İES-in hazırda da uğurla istismar edilməsini və respublikamızın elektrik enerjisinə tələbatının çox böyük bir hissəsini ödədiyini vurğulayıb.

Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərliyi dövründə bu vəzifələrin yerinə yetirilməsinə, enerjisistemin yenidən qurulması üçün məqsədyönlü tədbirlər həyata keçirdiyini deyən E. Pirverdiyev onu da bildirib ki, görülmüş işlər nəticəsində Azərbaycanın elektroenergetika sistemi XXI əsrə nəzərəçarpan inkişaf meyilləri ilə qədəm qoydu.

Məlumat verilib ki, Ulu Öndərin milli inkişaf naminə başladığı bütün işlər kimi, elektroenergetika sahəsində də quruculuq tədbirlərini Prezident İlham Əliyev uğurla davam etdirib və indiki yüksək səviyyəyə çatdırıb. Elektrik enerjisi təchizatının yaxşılaşdırılmasına dair genişmiqyaslı layihələr regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının tərkib hissələrindən biri olub. Regionların inkişafına dair birinci Dövlət Proqramı çərçivəsində respublikanın müxtəlif yerlərində ondan artıq elektrik stansiyası inşa olunub və yenidən qurulub. Bölgələrdə inşa edilən yeni elektrik stansiyaları nəinki enerji mənbəyi, həm də yüzlərlə yerli sakin üçün iş yeri olub.

Qeyd olunub ki, hazırda ölkədə elektrik enerjisi ilə təminat məsələlərinin həllində kiçik su elektrik stansiyalarının tikintisinə xüsusi diqqət göstərilməlidir. Bu elektrik stansiyaları enerji sisteminin generasiya güclərinin strukturunu əhəmiyyətli şəkildə yaxşılaşdıracaq, pik generasiyasının payı artacaq. Nəticədə enerji sisteminin manevretmə qabiliyyəti yaxşılaşacaq, elektrik stansiyalarının işinin optimallaşmasına imkan verəcək. Eyni zamanda elektrik enerjisinin istehsalına yanacağın sərfi azalacaq. Azərbaycanda çoxlu sayda kiçik çay və axınlar var, onların üzərində kiçik SES-lərin tikintisi iqtisadi baxımdan məqsədəuyğundur. Bu cür stansiyalarda mürəkkəb avadanlığın olmaması texniki istismar məsələlərini əhəmiyyətli dərəcədə sadələşdirir. Alternativ elektroenergetikanın böyük gələcəyi var və onun inkişafı istiqamətində işlər davam etdirilir. Ümumiyyətlə, iqtisadi rayonlar üzrə kiçik su elektrik stansiyalarının tikintisi işləri müəyyən edilmiş qrafikə uyğun davam etdirilir. Onların mərhələli şəkildə istismara verilməsi nəzərdə tutulur.

Milli Məclisin deputatı Aydın Mirzəzadə elektrik enerjisi sistemində görülmüş işlər və əldə olunmuş nailiyyətlərdən danışaraq bildirib ki, elektrik enerjisi sistemində mühüm islahatlar və geniş miqyaslı quruculuq işləri həyata keçirilir. Əldə olunan uğurlar respublikanın elektrik enerjisi sisteminin dayanıqlılığını və təhlükəsizliyini daha da möhkəmləndirir və Azərbaycanın regionda elektrik enerjisinin ixracı üzrə mühüm ölkəyə çevrilməsinə imkan verir.

Tədbirdə Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitunun direktoru akademik Arif Həşimov, "Azərenerji" ASC-nin Maliyyə və Uçot İdarəsinin rəisi İradə Məmmədova çıxış edərək bayram münasibətilə öz ürək sözlərini bildiriblər.

Tədbirdə Azərbaycan Prezidentinə müraciət qəbul edilib.

**DÜNYADAN SORAQLAR**



*DÜNYA*

## Hava proqnozunun dəqiqliyi səmərəliliyə müsbət təsir edir

♦ **Bir sıra Avropa ölkələri, o cümlədən Danimarka elektrikə olan tələbatının 60 faizə qədərini bərpa olunan enerji mənbələri (BEM) hesabına ödəyir.**

Digər ölkələrdə,məsələn, Almaniyada və Portuqaliyada bərpa olunan enerji mənbələrindən alınan elektrik enerjisinin payı, iri SES-lər də daxil olmaqla müvafiq surətdə ümumi enerjinin 32 və 30 faizini təşkil edir.

Bəzi Asiya ölkələrində BEM-lərdən alınan enerjinin miqdarı ümumi enerji balansında 20 faizə çata bilər. Bu, kommunal müəssisələr üçün günəş və külək energetikasının xüsusiyyətləri ilə əlaqədar xeyli çətinliklər yaradır.

Bərpa olunan enerji mənbələri həyatda daha geniş mövqeyə malik olması ilə əlaqədar generasiya gücləri həcmini idarə etmək üçün müvafiq infrastrukturlarda da dəyişikliyə ehtiyac yaranır. Mümkün olan problemlərə tələbatın və təklifin düzgün proqnozlaşdırılması da aiddir.

Deməli, energetika şirkətləri ehtiyat generatorlarına, habelə ötürücü və paylayıcı strukturların modernləşdirilməsinə xeyli vəsait ayırmalıdır. Kommunal müəssisələr bütün dünyada texniki xidmətə, ötürücü və paylayıcı infrastrukturların modernləşdirilməsinə ildə orta hesabla 25 milyard dollar xərcləyir.

Energetika və ətraf mühitin mühafizəsi departamentlərinin analitikləri söyləyirlər ki, kommunal müəssisələrin enerji satışından gəlirin azalmasına ikiqat təsirlə qarşılaşacaqlar. Bu isə onunla əlaqədardır ki, əvvəla, bəzi istehlakçılar bərpa olunan enerji mənbələrindən özləri üçün enerji almağa başlamışdılar, ikincisi, onlar bərpa olunan mənbələrin inteqrasiyasını dəstəkləmək üçün ötürücü və paylayıcı infrastrukturun modernləşdirilməsinə daha həvəslə investisiya qoyurdular.

Bu problemin həlli üçün bir sıra şirkətlər, o cümlədən Avropadan PWE və E.ON, ABŞ-dan NRG Enerqy öz biznes modellərini yenidən nəzərdən keçirməyə başladılar. Həmin şirkətlər bərpa olunan enerji mənbələri əsasında qurğuların quraşdırılmasında və istismarında öz istehlakçılarına kömək edir və beləliklə də onları «istehsalçı istehlakçılara» çevirir və virtual elektrik stansiyaları yaradırlar. Bu cür model fiziki infrastrukturun xeyli hissəsinə «qayğını götürməkdə» şirkətlərə imkan verir.

Lakin belə tədbirlər yalnız istehlakçılara məxsus olan generatorlarla (daha çox damdakı günəş batareyaları ilə) bağlı problemləri həll edir. daha mürəkkəb vəzifə isə yenə də iri günəş və külək elektrik stansiyalarından bir neçə giqovat gücün elektrik şəbəkəsinə inteqrasiyası olacaq.

Energetika və ətraf mühitin mühafizəsi departamentinin apardığı «Bərpa olunan enerji mənbələrinin elektrik şəbəkələrinə inteqrasiyası pesrpektivlərinin qlobal qiymətləndirilməsi» adlanan yeni tədqiqatlarda uğurların tarixi və bir sıra qabaqcıl metodika təhlil olunur.

**Danimarka**

2013-cü ildə Danimarkada bərpa olunan enerji mənbələrinin gücü 5 QVt-yə çatmışdı, onun da çox hissəsi dəniz küləyi enerjisinin payına düşür. Bərpa olunan enerji mənbələlərinin hesabına 2014-cü ildə Danimarkada enerjiyə tələbatın 62 faizi ödənilib (2013-cü ildə bu göstərici 33 faiz olub).

Danimarka qarşısına təkəbbürlü vəzifə qoyub – elektrikin 50 faizini yalnız külək hesabına istehsal etmək. Lakin bu yolda müəyyən çətinliklər var. Buraya köhnəlmiş xətlərin əsaslı təmiri, külək enerjisinin ekstremal titrəmələrinin idarə olunması və ölkənin müxtəlif regionlarının elektrik enerjisinə görə rəqabət aparmaması üçün elektrik qidalanmasında ev sistemlərinin çevikliyini artırmaq da daxildir. Danimarka Avropa və Skandinaviya bazarları ilə yaxşı inteqrasiya olunmuş elektrik şəbəkəsinə malik olduğu üçün bu vəzifənin öhdəsindən gəlmək iqtidarındadır. Bu ölkə həm də külək enerjisindən alınan elektriki balanslaşdırmq üçün özünün kömür elektrik stansiyalarını da optimallaşdırıb.

**Almaniya**

Bu ölkədə elektrikə ehtiyacın 30 faizi bərpa olunan enerji mənbələri hesabına ödənilir. Almaniyada BEM hesabına enerji istehsalını 2020-ci ilədək 35 faizə, 2030-cu ildə 50 faizə çatdırmaq planlaşdırılır.

Almaniyanın üstünlüyü onun güclü elektrik şəbəkəsinə malik olmasındadır. Bu isə ötürücü sistem operatorlarına və kommunal müəssisələrinə imkan verir ki, onlar bərpa olunan enerji mənbələrinin inteqrasiyasını minimal infrastruktur dəyişiklikləri ilə həyata keçirsinlər. Artıq qalan kömürdən səmərəli istifadə etmək və elektrik enerjisinin qonşu ölkələrə idxalını bacarıqla idarə etməklə Almaniya bərpa olunan enerji mənbələrini öz enerji sisteminə uğurla inteqrasiya edə bilib.

**Çin**

2014-cü ildə Çində istehsal olunan ümumi elektrik enerjisinin 13 faizi bərpa olunan enerji mənbələrinin payına düşürdü. 2020-ci ildə ölkə külək enerjisi hesabına qoyuluş gücünü 100 QVt-yə çatdırmağı planlaşdırır. Çinin qarşılaşdığı ən böyük problem küləyin gücünün azalmasıdır – nəticə olaraq 2011-ci ildən başlayaraq illik itkilər 1 milyard ABŞ dollarından çox olur. Çin enerjinin saxlanması sistemini işləyib hazırlayır, həmçinin tələbat və tədarüklər mərkəzlərinin qarşılıqlı əlaqəsini nizama salmaq üçün ultrayüksək gərginliklərin ötürülməsi sistemini yaradır.

Analitiklərin fikrincə, elektrik enerjisinə tələbat strukturunu analiz etmək və bu məlumatları dəqiq hava proqnozü ilə birlikdə inteqrasiya etmək bacarığı bahalı modernləşdirmə infrastrukturunun ötürülməsi üçün əlavə investisiya qoyulmasından yaxa qurtarmaqda kommunal müüəssisələrə kömək edəcək.

*QAZAXISTAN*

## Şirkət yeni inkişaf strategiyasını qəbul edib

♦ **«Kazatomprom» şirkəti fəaliyyətdə olan uran mədənlərini inkişaf etdirəcək, yeni mədənlər tikəcək, uran çıxarılmasının səmərəliliyinin artırılmasına və maya dəyərinin azaldılmasına yönəldilən yeni texnologiyaları tətbiq edəcək.**

Astanada Qazaxıstan Respublikası Baş nazirinin birinci müavini, «NAK Kazatomprom» SC direktorlar şurasının sədri Bakıtcan Saqintayevin sədrliyi ilə milli atom şirkəti direktorlar şurasının iclası keçirilib. «NAK «Kazatomprom» SC-nin idarə heyətinin sədri Askar Jumaqaliyev şirkətin 2015-2025-ci illər üçün inkişaf strategiyası barədə direktorlar şurası üzvlərinə məlumat verib.

Sənəddə şirkətin yaxın illər üçün inkişaf istiqamətləri müəyyən edilir, habelə strateji məqsədləri aydınlaşdırılır. Qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün taktiki tədbirlər müəyyən edilib. Strategiyanın reallaşdırılması "Kazatomproma" və Qazaxıstana təbii uran çıxarılmasında dünyada liderlik mövqeyini qoruyub saxlamağa imkan verəcək.

*AVROPA*

## Konsern zavod üçün avadanlıq hazırlayacaq

♦ **Estoniyanın «Eesti energia» konserninin «Tehnoloqiatööstus» müəssisəsi beynəlxalq tədarük müsabiqəsində qalib gəlib, indi Finlandiyadakı biokütlə zavoduna xammal ötürülməsi üçün avadanlıqların layihələndirilməsi, istehsalı və quraşdırılmsı ilə məşğul olacaq.**

«Eesti Energia» idarə heyətinin üzvü Andres Vaynola bildirib ki, müəssisənin uğurları sənaye avadanlıqları hazırlamaq sahəsində qazandığı təcrübə ilə əlaqədardır. Şirkət müştərilərinə onların zövqünə uyğun qərarlar verir, pesrpektiv bazarlarının olduğu Estoniyadan kənarda da rəqabətə davamlı ola bilmək qabiliyyətinə malikdir.

A.Vaynola onu da əlavə edib ki, əvvəllər müəssisə Skandinaviyada, Qərbi Avropada, habelə Asiyada və Amerikada olan müştərilərinə avadanlıq istehsal edirdi. Digər avadanlıqlarla yanaşı, müəssisə neft və qaz sənayesində sualtı qazma avadanlıqları üçn polad konstruksiyalar istehsal edir. «Eesti Enerqia Tehnoloqiatööstus» eyni zamanda şistin və bioyanacağın ötürülməsi sistemini, «Auvere» elektrik stansiyasında külün götürülməsi sistemini, Baltik elektrik stansiyasına bioyanacağın ötürülməsi sistemini yaradıb.

Biokütlə zavodunun tikintisinə bu ilin yazında başlanıb. Zavod 2017-ci ildə tikilməlidir. Zavodun inşası 1,2 milyard avroya başa gələcək ki, bu da Finlandiyanın meşə sənayesi sahəsində ən böyük sərmayə qoyuluşu sayılır. Zavodun əsas məhsulu sellülozdur, müəssisə bundan əlavə şam yağı və skipidar istehsal edir. Biokütlə zavodu eyni zamanda elektrik enerjisi də hasil edir. O, ildə 6,5 milyon kubmetr xammal işlədir.

«Eesti Enerqia Tehnoloqiatööstus» müəssisəsi beynəlxalq aləmdə «Enefit» ticarət markası ilə fəaliyyət göstərir, energetika və sənaye sahələrində rəqabətədavamlı texnoloji layihə qərarları təklif edir.

«Eesti Enerqia» konsernində «Tehnoloqiatööstus» müəssisəsi elektrik stansiyaları və yağ zavodları üçün texnoloji qərarların əsas yaradıcısı və hazırlayıcısıdır. O, həm də xidmət və təmir işlərini də həyata keçirir. «Tehnoloqiatööstus»da 900 nəfərədək adam çalışır. Onun bazarları 40-dan çox dövlətdə, daha çox Avropada və Asiyada yerləşir.

*UKRAYNA*

## İstilik şəbəkələri yoxlanılıb

♦ **«Kiyevenerqo» istilik təsərrüfatı avadanlıqlarının isitmə mövsümünə hazırlanmasına dair planlaşdırma işlərini başa çatdırır. İstilik mənbələrinin avadanlıqlarının İES-lərin və şirkətin qazanxanalarının hazırlanması işləri 90 faizdən yuxarıdır.**

2015-ci ilin planlarına görə payız-qış mövsümünə 184 istilik mənbəyi (İEM-5, İEM-6 və 182 qazanxana) hazırlanmalıdır. İndiyədək qazanxanaların 92 faizdən çoxu hazırlanıb. Həmçinin üç enerji bloku (100 MVt-lik bir və 250 MVt-lik iki enerji bloku), 557 suqızdırıcı qazan (onlardan 10-u əsaslı) təmirdən çıxarılıb. «Kiyevenerqo»nun filialı – «Energiya zavodu»nda üç qazan aqreqatlarının təmiri başa çatdırılıb, daha bir aqreqat isə əsaslı təmirdədir.

«Kiyevenerqo»nun istilik şəbəkəsi tam həcmdə hidravlik yoxlamadan keçirilib. 2015-ci il aprelin 15-dən avqustun 31-dək aparılan sınaqlar zamanı istilik şəbəkələrinin boru kəmərlərində 1362 zədələnmə qeydə alınıb, onlardan 1287-si aradan qaldırılıb. Əsaslı təmir işləri və yenidənqurma zamanı (köhnəlmiş sahələrin tamamilə dəyişdirilməsi) 2015-ci il sentyabrın 1-dək 11253 metr uzunluğunda boru dəyişdirilib.

«İsitmə mövsümünə hazırlıq planlaşdırılan müddətdə həyata keçirilir. Bu il şirkət gücünü və investisiya proqramı vəsaitlərinin üçdə iki hissəsini şəhər sakinləri üçün çox vacib olan istilik enerjisinin uçota alınması üçün ev şəbəkələrinin quraşdırılmasına yönəldib. Eyni zamanda paytaxtın istilik şəbəkəsinin də yenidən qurulmasına ehtiyac var. Bunu nəzərə alan «Kiyevenerqo» TOP-100 proqramını reallaşdırır – istifadəyə yararsız sahələr tamamilə yeniləşdirilir», - deyə «Kiyev istilik şəbəkələri»nin direktoru Yevgeni Qluşak bildirib.

***Materialı hazırladılar: V.Məmmədov, Ə.Baxşəliyev***

## Bölgələrdə tədbirlər keçirilib

♦ **Respublikamızda elektrik enerjisinin mühüm mərkəzlərindən olan Mingəçevir şəhərində 20 Oktyabr - Eneregetiklər Günü münasibətilə bayram tədbirləri keçirilib.**

"Azərbaycan" İES-in, Mingəçevir SES-in, Mingəçevir REŞ-in əmək kollektivlərinin nümayəndələri mütstəqil dövlətimizin qurucusu, Ulu Öndər Heydər Əliyevin şəhərdəki abidəsini ziyarət edib, onun önünə təzə-tər güllər düzüblər.

Sonra müəssisələrin hər birində bayrama həsr olunmuş yığıncaqlar keçirilib, ölkəmizin elektrik energetikası sistemində Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış uğurlardan danışılıb, energetiklərin qarşıda duran vəzifələri daim layiqincə yerinə yetirəcəkləri bildirilib.

Energetiklər Gününə həsr edilmiş tədbirlər "Azərenerji" ASC-nin regionlardakı bütün müəssisələrində qeyd edilib.



## Yenidənqurma işləri davam etdirilir

♦ **Havaların əlverişli keçməsi «Gəncə REŞ» MMC-nin kollektivini payız-qış mövsümü üçün nəzərdə tutulmuş tədbirlər planını ardıcıllıqla yerinə yetirməyə imkan verib.**

Müəssisənin təmirçilər briqadaları yüksək gərginlikli xətlərdə və yarımstansiyalardakı avadanlıqlarda əsaslı və cari təmirləri davam etdiriblər. Bu proses cari ilin sentyabr ayında da davamlı olaraq həyata keçirilib.

Onlar 330/110/10 kilovoltluq «Ağstafa» yarımstansiyasında 125 MVA gücündə olan 1 nömrəli avtotransformatoru əsaslı təmirdən çıxarıblar. Bununla yanaşı 110/35/10 kV-lik «Gəncə-2» yarımstansiyasında yenidənqurma işlərini də davam etdiriblər.

Təmirçilər briqadası 330/110/10 kV-lik «Gəncə» yarımstansiyasında çıxan 330 kV-lik «Goranboy» hava xəttini, 110 kV-lik «Şəmkir-2», «Kür-1» hava xətlərinin eleqaz açarlarını, cərəyan transformatorunu, xətt ayırıcısını cari təmirdən çıxarıblar. 330 kV-lik ikinci ŞS-in gərginlik transformatoru yeni tipli gərginlik transformatoru ilə əvəz olunub.

«Ağstafa-1» və «Ağstafa-2» hava xətlərində bir ay ərzində üst-üstə 380-dən artıq izolyator yeniləri ilə əvəz olunub ki, bu da həmin hava xətlərinin dayanıqlığını xeyli artırıb.

Cari və əsaslı təmirlər «Azərenerji» ASC-nin digər müəssisəsində – «Mingəçevir REŞ» MMC-də də uğurla həyata keçirilib.

Şəbəkənin müxtəlif yarımstansiyalarında sentyabrda cari təmirlər üstünlük təşkil edib. 110 kV-lik yarımstansiyada dörd ədəd güc transformatorunun, altı ədəd eleqaz açarının, iki ədəd yağ açarının, habelə 220 kV-lik bir ədəd yağ açarının və 35 kV-lik yeddi ədəd eleqaz açarının təmiri bu qəbildəndir.

Hər iki müəssisədə əsaslı və cari təmirlər oktyabr ayında da davam etdirilir.

**Yusif ƏLƏKBƏROV**

24 OKTYABR - BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI GÜNÜDÜR

# Birləşmiş Millətlər Təşkilatının 70 yaşı var

♦ **Birləşmiş Millətlər Təşkilatı II Dünya müharibəsi başa çatandan dərhal sonra beynəlxalq münasibətləri sabitləşdirmək və sülhün təmin edilməsi üçün daha etibarlı təməl yaratmaq məqsədilə təsis edilib. Nüvə müharibəsi təhlükəsi, həmçinin aramsız regional münaqişələr şəraitində sülhün təmin edilməsi Birləşmiş Millətlər Təşkilatının ən ümdə vəzifəsinə çevrilib. Bununla yanaşı, BMT yalnız sülhün yaradılması və münaqişələrin həlli üçün bir forum rolunu oynamır. Bu beynəlxalq təşkilat və ona daxil olan qurumlar artıq 70 ildir ki, bütün dünyada insanların həyatını yaxşılaşdırmaq üçün çoxsaylı sahələrdə səmərəli fəaliyyət göstərir.**

BMT-nin yaranması haqqında Qanun 24 oktyabr 1945-ci ildə qüvvəyə minib. Bu sənəd Amerika Birləşmiş Ştatları, Çin, Fransa, Sovet İttifaqı, Böyük Britaniya və digər dövlətlər tərəfindən imzalanıb. Qeyd edək ki, BMT-nin Qanunu 1945-ci il aprel ayının 25-26-da San-Fransiskoda keçirilən Birləşmiş Millətlər konfransında razılaşdırılıb, iyunun 26-da 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb, 1945-ci il oktyabrın 24-də isə qüvvəyə minib.

Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdən ibarət olan bu beynəlxalq təşkilatın qərargahı Nyu-York şəhərindədir. BMT-nin əsas orqanları Baş Məclis, BMT Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdən ibarətdir.

Birləşmiş Millətlər Təşkilatı Günü 1948-ci ildən etibarən hər il 24 oktyabr tarixində qeyd edilir. Həmin gün münasibətilə BMT-nin məqsədləri və nailiyyətlərinə həsr olunan iclas, diskussiya və sərgilər keçirilir. 1971-ci ildə isə BMT Baş Məclisinin tövsiyəsi ilə 24 oktyabr tarixi BMT-yə üzv olan bütün ölkələrdə bayram kimi qeyd edilir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra 1991-ci il oktyabrın 29-da BMT-yə üzv olmaq üçün müraciət edib. BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilən 46-cı sessiyasında Azərbaycan Respulikasının BMT-nin üzvlüyünə qəbul olunması barədə qətnamə qəbul edilib.

Xalqımızın haqq səsinin dünyaya çatdırılması və obyektiv ictimai rəyin formalaşdırılması, eləcə də dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi məqsədi ilə 1992-ci il martın 6-da Nyu-Yorkda Azərbaycanın BMT yanında daimi nümayəndəliyi fəaliyyətə başlayıb. Həmin ilin noyabr ayında isə BMT-nin Azərbaycanda daimi nümayəndəliyi açılıb. Azərbaycanın BMT-də fəaliyyət göstərən daimi nümayəndəliyi həm BMT, həm də onun ixtisaslaşdırılmış qurumları ilə siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlıq edir. Siyasi sahədə əməkdaşlığın əsas məqsədi Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi bir vaxtda beynəlxalq birliyin diqqətinin münaqişə bölgəsində baş verən hadisələrə cəlb edilməsi və dünya ictimaiyyətində obyektiv rəy formalaşdırılmasıdır.

Xatırladaq ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar Təhlükəsizlik Şurası sədrinin 6 bəyanatında, eləcə də Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. İşğalçı ölkənin qüvvələrinin zəbt olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılması, atəşkəsin əldə edilməsi və münaqişənin danışıqlar yolu ilə həll olunması tələb olunur.



Ulu öndər Heydər Əliyev 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək, bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmiz ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ problemi haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırıb. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan Respublikasının prinsipial mövqeyini açıqlayıb, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırıb. 2000-ci ilin sentyabr ayında BMT-də Minilliyin sammitində çıxış edən ümummilli liderimiz Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bəyan edib.

BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan edib və onların həyata keçirilməsinin işlək mexanizmin yaradılmasını ümdə məsələ kimi irəli sürüb.

Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınıb. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də və 2008-ci il martın 14-də keçirilən plenar iclaslarında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul edilib. Həmin sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması, həmin ərazilərdə yanğınların törədilməsi pislənilir, Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad edilməklə erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, təmamilə və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Respublikamız BMT-nin üzvlüyünə qəbul olunduğu vaxtdan bu nüfuzlu beynəlxalq təşkilatla qarşılıqlı əlaqələrin genişləndirilməsi, onun çoxşaxəli əməkdaşlığa çevrilməsi və Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq aləmdə müvafiq yer tutması üçün fəal iş aparır. Eyni zamanda, ölkəmiz bu təşkilatın bir çox qurum və orqanları ilə fəal və səmərəli əməkdaşlıq edir. Azərbaycan Respublikası 1995-1997, 1998-2000-ci illər ərzində UNİCEF-in İcra Heyətinin, 2000-2002-ci illər ərzində Qadınların vəziyyəti haqqında Komissiyanın və 2002-2004-cü illər ərzində BMT-nin Davamlı İnkişaf üzrə Komissiyasının üzvü olub. Azərbaycan 2003-2005-ci illər üçün BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) üzvü seçilib.

2011-ci il oktyabrın 24-də isə Azərbaycan 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə inamlı qələbə qazanıb. Beləliklə, Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə olub. Bununla yanaşı, ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması və dövlət başçısı İlham Əliyevin sədrliyi ilə 2012-ci ilin may ayında Təhlükəsizlik Şurasının iclasının keçirilməsi Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri kimi tarixə düşüb...

...Oktyabrın 24-də bütün dünya dövlətləri Birləşmiş Millətlər Təşkilatı Gününü həm də yubiley tədbiri kimi böyük təntənə ilə qeyd edəcəklər. Artıq 70 ildir ki, Birləşmiş Millətlər Təşkilatı dünyada sülhün və təhlükəsizliyin qorunmasında, davamlı inkişaf və demokratikləşdirmə prosesində yaxından iştirak edir. Bu beynəlxalq quruma 23 ildən çox üzv olan müstəqil Azərbaycan Respublikası isə ötən müddət ərzində BMT-yə üzv dövlətlər, BMT Katibliyi, regional və subregional təşkilatlar, mülki cəmiyyətlər və akademik dairələrlə əməkdaşlığını daha da genişləndirərək səmərəli şəkildə inkişaf etdirib.

**Sadıq QARAYEV**

## Milli Təhlükəsizlik Nazirliyinin 7 nəfər vəzifəli şəxsi barəsində həbs qətimkan tədbiri seçilib

♦ **Milli Təhlükəsizlik Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və yol verilmiş digər qanun pozuntuları faktları üzrə Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq-əməliyyat qrupu yaradılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə nazirliyin bir qrup əməkdaşı tərəfindən xidməti vəzifələrinin icrası ilə əlaqədar qulluq səlahiyyətlərindən sui-istifadə etmə və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin tələblərini pozmaqla sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələr edilməsi, ayrı-ayrı şəxslərin hüquq və qanunla qorunan mənafelərinin pozulmasına əsaslı şübhələr müəyyən olunub.

Cinayət işi üzrə Milli Təhlükəsizlik Nazirliyinin 7 vəzifəli şəxsi Cinayət Məcəlləsinin 308.2, 309.1 və 302.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq həmin maddələrdə nəzərdə tutulan ittiham elan edilməklə məhkəmənin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

CƏMİYYƏT

## AMEA doktorantura və dissertanturaya sənədlərin qəbulu 20 gün davam edəcək

♦ **Oktyabrın 15-dən Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) doktorantura və dissertanturaya sənədlərin qəbuluna başlanılıb və bu proses 20 gün davam edəcək.**

Sənəd verən şəxslərin sayı isə noyabrın 5-dən sonra məlum olacaq. Bu barədə akademiyada doktoranturaya qəbul və doktorluq imtahanlarında test texnologiyalarının tətbiqi ilə əlaqədar yaradılan ekspert komissiyasının ilk iclasında məlumat verilib. AMEA-dan AZƏRTAC-a bildiriblər ki, iclasda akademiyada test texnologiyasının ilk dəfə tətbiq olunduğu vurğulanıb. İclasda test üsulu ilə keçiriləcək imtahanların müddəti, testlərin sayı, sadə və ya mürəkkəblik dərəcəsi kimi məsələlər ilə bağlı müzakirələr aparılıb, imtahanların müddəti müvəqqəti olaraq iki saat müəyyənləşdirilib.

## İİV-ə yoluxma hallarının statistikası açıqlanıb

♦ **Bu ilin 9 ayı ərzində Azərbaycan vətəndaşları arasında 477 İİV-ə yoluxma halının 24,9 faizi (119 hal), ümumilikdə isə 1992-ci ildən 2015-ci il sentyabrın 1-dək 5397 yoluxma halının 51,9 faizi (2801 hal) inyeksion narkotik istifadəsi nəticəsində baş verib.**

AZƏRTAC xəbər verir ki, bu faktlar Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının hesabatında əksini tapıb.

Hesabatda bildirilir ki, həmçinin bu il sentyabrın 1-dək ümumilikdə 2784 nəfər İİV/QİÇS xəstəsi ARV-terapiyaya cəlb edilib, onlardan 408-i cari il ərzində olub. Yeni cəlb olunanlardan 131 nəfəri inyeksion narkotik istifadəçisidir. ARV-terapiyaya ümumilikdə cəlb olunan 2784 nəfərdən 1403-ü inyeksion narkotik istifadəçisidir.

Eyni zamanda, Respublika Narkoloji Mərkəzinin qeydiyyatında olan xəstələrin qan nümunələri müntəzəm şəkildə Respublika QİÇS-lə Mübarizə Mərkəzinin və onun regional diaqnostika laboratoriyalarına göndərilir və müayinə olunur. Bu ilin 9 ayı ərzində 123 şəxsdə İİV-ə yoluxma venadaxili narkotik maddələrin qəbulu nəticəsində baş verib.

## Transformator məntəqəsində qızla oğlanı cərəyan vurub

♦ **Nəsimi rayonunda bədbəxt hadisə baş verib. APA -nın məlumatına görə, rayonun Ağadadaş Qurbanov küçəsində 20 yaşlı Fəqan Fərzəliyev və hələlik kimliyi məlum olmayan təxminən 18 yaşlarında qız 6 min voltluq transformatorun qapısını açaraq içinə daxil olublar.**

Bu zaman ehtiyatsızlıq edən Fəqan Fərzəliyev yüksək gərginlikli naqillərə toxunub. Nəticədə elektrik cərəyanı onları bir neçə metr kənara tullayıb. Hər iki şəxs ağır xəsarətlər alıb. Yaralılar xəstəxanaya çatdırılıblar. Hadisə nəticəsində çoxsaylı yanıq xəsarətləri alan Fəqan Fərzəliyev qolunun birini itirib.

Faktla əlaqədar Nəsimi Rayon Polis İdarəsində cinayət işi başlanıb. Araşdırmalar aparılır.

FUTBOL

## “Qarabağ” vahid liderdir

♦ **Oktyabrın 18-də futbol üzrə Topaz Premyer Liqasının səkkizinci turu çərçivəsində son matç “Kapital Bank Arena”da “Sumqayıt” komandası ilə Bakının “İnter” klubu arasında keçirilib.**

AZƏRTAC xəbər verir ki, turnir cədvəlinin son pillələrində qərarlaşan əyalət təmsilçisi “İnter” futbolçularına güclü müqavimət göstərib. Görüş 1:1 hesabı ilə başa çatıb. “Sumqayıt” komandasının heyətində Pərdis Fərcad-Azad, “İnter”dən isə Kvekveskiri fərqlənib. Xal itkisi Bakı klubunun turnir cədvəlində üçüncü pilləyə yüksəlməsinə imkan verməyib.

Qeyd edək ki, səkkizinci turun digər qarşılaşmalarında bu nəticələr qeydə alınıb. “Qarabağ”-“Zirə” - 4:1, “Neftçi”-“Qəbələ” – 0:1, “Rəvan” - “Kəpəz” – 0:2, “Xəzər Lənkəran”- “AZAL”-3:1.

Hazırda Ağdamın “Qarabağ” klubu 20 xalla çempionatın vahid lideridir. “Qəbələ” klubu 19 xalla ikinci, “Zirə” komandası isə 15 xalla üçüncü pillədə qərarlaşıb.

TURNİR CƏDVƏLİ

| Y | Klublar | O | Q | H | M | T-f | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | Qarabağ | 8 | 6 | 2 | 0 | 17-7 | 20 |
| 2 | Qəbələ | 8 | 6 | 1 | 1 | 17-4 | 19 |
| 3 | Zirə | 8 | 4 | 3 | 1 | 8-6 | 15 |
| 4 | İnter | 8 | 4 | 2 | 2 | 6-6 | 14 |
| 5 | Kəpəz | 8 | 3 | 2 | 3 | 9-7 | 11 |
| 6 | Neftçi | 8 | 2 | 3 | 3 | 8-8 | 9 |
| 7 | Xəzər Lənkəran | 8 | 2 | 3 | 3 | 8-12 | 9 |
| 8 | Sumqayıt | 8 | 0 | 5 | 3 | 5-9 | 5 |
| 9 | AZAL | 8 | 1 | 1 | 6 | 3-11 | 4 |
| 10 | Rəvan | 8 | 0 | 2 | 6 | 4-14 | 2 |

## FİFA “Qızıl top” mükafatına namizəd olan 23 futbolçunun adını açıqlayıb

♦ **Oktyabrın 20-də dünyanın ən yaxşı futbolçusuna verilən “Qızıl top” mükafatına namizəd 23 idmançının adı açıqlanıb. AZƏRTAC FİFA-nın rəsmi saytına istinadla xəbər verir ki, siyahıya “Barselona”dan 6, “Real” və “Bavariya”dan 5, “Mançestr Siti”dən 3 futbolçunun adı daxil edilib.**

FİFA-nın açıqladığı siyahıda Serxio Aquero, Yaya Ture (hər ikisi “Mançester Siti”), Kevin de Bryune (“Mançester Siti”/ “Volfsburq”), Qaret Beyl, Karim Benzema, Kriştianu Ronaldu, Toni Kroos, Hames Rodriqes (hamısı “Real”), Eden Azar (“Çelsi”), Zlatan İbrahimoviç (PSJ), Andres İnesta, Neymar, Xavyer Maskerano, Linoel Messi, İvan Rakitiç, Luis Suares (hamısı “Barselona”), Robert Levandovski, Tomas Müller, Manuel Noyer, Aryen Robben (hamısı “Bavariya”), Arturo Vidal (“Bavariya”/ “Yuventus”), Pol Poqba (“Yuventus”) və Aleksis Sançes (“Arsenal”) yer alıblar.

Milli komandaların kapitan və baş məşqçilərinin, həmçinin kütləvi informasiya vasitələrinin səsverməsindən sonra noyabrın 30-da üç namizəd futbolçunun adı açıqlanacaq.

“Qızıl top”un sahibi isə gələn il yanvarın 11-də Sürixdə təşkil olunacaq təntənəli mərasimdə açıqlanacaq.

Qeyd edək ki, 2014-cü ildə ən yaxşı futbolçu adına “Real”ın hücumçusu Kriştianu Ronaldu sahib olub.

## Expressbank MasterCard Concierge kartlarını təklif edir

♦ **Expressbank MasterCard Concierge kartlarını təklif edir. “Trend”in yaydığı məlumata görə, Expressbank MasterCard Gold və MasterCard Platinum kartlarını əldə edən müştərilərə 1 illik pulsuz MasterCard Concierge xidməti təklif edir. Bu xidmət vasitəsilə müştərilər günün 24 saatı ərzində 6922 qısa nömrəsinə zəng etməklə, şəxsi assistentdən istənilən tapşırığı yerinə yetirməyi istəyə bilərlər. Xidmətlər barədə ətraflı www.firstline.az saytından məlumat almaq mümkündür.**

MasterCard Gold və MasterCard Platinum kartlarını müvafiq olaraq 400 AZN və 800 AZN ilkin mədaxil edərək pulsuz əldə etmək mümkündür. Hər 2 Premium kart üçün SMS məlumatlandırma xidməti pulsuzdur. Müştəri kartı aldığı gün hesaba mədaxil etdiyi məbləğdən Expressbank bankomatlarında komissiyasız istifadə edə bilər.

Qeyd edək ki, Expressbank geniş çeşiddə valyuta seçimi ilə (Azərbaycan manatı, ABŞ dolları, avro və Böyük Britaniya funtu) bank kartlarını 1, 2 və ya 3 il müddətinə təklif edir.

“Expressbank”ın xidmət şəbəkəsi 18 filialdan ibarətdir. Onlardan 12-si Bakı və Sumqayıt şəhərlərində, 6-sı isə ölkənin Gəncə, Mingəçevir, Bərdə, Qusar, Xaçmaz və Şirvan şəhərlərində yerləşir. Bankın ölkə üzrə 90-dək bankomat, 7500-dək POS-terminal və 300-dək ExpressPay ödəniş terminalı vardır.

Bank xidmətləri barədə ətraflı məlumat üçün 132 Məlumat Mərkəzinə zəng edə, www.expressbank.az saytına və ya Bankın rəsmi facebook səhifəsinə (*www.facebook.com /Expressbank*) daxil ola bilərsiniz.

● BAKI BULVARINDA PAYIZ



TƏBABƏT

## Soyuq hava ürək-damar xəstəliklərinə səbəb olur

♦ **Rusiya və Çin alimləri birgə tədqiqatlar zamanı müəyyən ediblər ki, soyuq hava şəraiti əsasən ürək-damar xəstəliklərinə gətirib çıxarır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın “İnformus” portalı məlumat yayıb. Ətraf mühitin temperaturu insan sağlamlığına xeyli təsir göstərir. Belə ki, aşağı temperatur ürək və damarların formasını dəyişərək onların nasazlığına səbəb olur. Məlumatda bildirilir ki, ezamiyyətlərini şimalda keçirən insanlarda ürək-damar sistemi xəstəliklərinə daha çox rast gəlinir. Bundan başqa, soyuq iqlim insanların məişət və qida vərdişlərini də dəyişdirir ki, bu da onların səhhətinə mənfi təsir göstərir.

## Arıqlamaq xərçəngin profilaktikası üçün ən yaxşı üsuldur

♦ **Genişmiqyaslı tədqiqatlar zamanı alimlər müəyyən ediblər ki, onkoloji xəstəliklərin profilaktikasında ən yaxşı üsul artıq çəki ilə mübarizədir. Tədqiqatların nəticələri “Lancet” jurnalında dərc olunub.**

Statistikaya görə, hazırda ABŞ əhalisinin üçdə biri piylənmədən əziyyət çəkir. Böyük Britaniyada da oxşar vəziyyətdir. Burada da hər beş ölkə vətəndaşının artıq çəkisi var. Beləliklə, bir çox dövlətlərdə amerikalı mütəxəssislər onkoloji xəstəliklərlə artıq çəkinin əlaqəsini yoxlamaq qərarına gəliblər.

AZƏRTAC informing.ru saytına istinadən xəbər verir ki, alimlər tədqiqatlara beş milyon könüllü cəlb ediblər. Araşdırmalar göstərib ki, təkcə Birləşmiş Krallıqda hər il artıq çəkidən əziyyət çəkən insanlarda 12 mindən çox onkoloji xəstəlik halı qeydə alınır. Müəyyən edilib ki, qadınlarda bədən kütləsi indeksinin yüksəlməsi onların 62 faizində uşaqlıq xərçənginin inkişafı riskini artırır. Həmçinin bədən kütləsi indeksinin normadan 25 faiz artımı hər iki cinsdə böyrək xərçəngi yaradır.

Bundan əlavə, artıq çəki kişilərin 10 faizində bağırsaq xərçənginə, qadınların isə 41 faizində süd vəzisi xərçənginə tutulmaq ehtimalını artırır. Ekspertlərin fikrincə, piylənmə estrogen hormonunun artmasına şərait yaradır ki, bu da döş xərçənginin inkişafına gətirib çıxara bilər.

Tədqiqatların nəticələrinə əsasən alimlər belə qənaətə gəliblər ki, onkoloji xəstəliklərin profilaktikasında ən yaxşı üsul arıqlamaqdır.

## İntellektual səviyyə beynin ölçüsündən asılı deyil

♦ **Avstraliya alimləri bildiriblər ki, baş beynin ölçüsü onun sahibinin intellektual səviyyəsinə heç bir təsir göstərmir.**

AZƏRTAC lenta.ru saytına istinadla xəbər verir ki, mütəxəssislər 8 mindən çox könüllünün iştirakı ilə 150-dək tədqiqat apardıqdan sonra belə qənaətə gəliblər.

Eksperiment iştirakçılarının maqnit-rezonans tomoqrafiyası aparılıb. Sonra isə onlar intellekt səviyyələrinin müəyyən edilməsi üçün testdən keçiblər. Nəticədə sübut olunub ki, insanın intellektual inkişafı beynin həcmi ilə bağlı deyil.

Araşdırmalar nəticəsində o da sübut olunub ki, intellekt cinsdən də asılı deyil. Qadınların beyni ölçüsünə görə kişilərin beynindən kiçikdir. Amma demək olmaz ki, onlarda intellektual səviyyə kişilərdən aşağıdır.

ASTROLOJİ PROQNOZ

## HƏFTƏLİK ULDUZ FALI

**QOÇ**



Qarşınızda hər mənada uğurlu günlər durur. Bunun üçün daxili inam və qətiyyət kifayət edər. Şad xəbər eşidəcəksiniz. Ulduzlar bəxtinizə pul da çıxarmaq əzmindədir.

**BUĞA**



Üzləşdiyiniz proseslər narahatçılığınızı artıra bilər. Bu səbəbdən də bütün vacib planlarınızı təxirə salmalısınız. Yaxın bildiyiniz adamlar sizə qarşı xoşagəlməzliklər edəcək.

**ƏKİZLƏR**



Ay bürcünüzdə olduğundan bu günlər kənardan kiminsə dəstəyinə ehtiyacınız olacaq. Bunsuz hansısa nailiyyətə yetişəcəyiniz mümkünsüzdür. Öz növbənizdə siz də aktivliyinizi artırmalısınız.

**XƏRÇƏNG**



Bu həftə adi işlərin həlli ilə məşğul olun. Sonrakı günlər isə böyük məsələlərin həllinə başlamağa dəyər. Gözləmədiyiniz istiqamətdən təzə, ürəkaçan xəbərlər eşidəcəksiniz.

**ŞİR**



Yalnız sabitliyinizi qorumağa çalışın. Xırda bir yanlışlıq nəzərdə tutduğunuz işləri alt-üst edə bilər. Odur ki, qərar çıxarmazdan qabaq mövcud reallığı nəzərə almalısınız.

**QIZ**



Yeni əlaqələr yaratmaq, işgüzar danışıqlar aparmaq sizə xüsusi zövq verəcək. Bu yönümdə sevgi amili daha qabarıq tərzdə nəzərə çarpacaq. Amma müsahiblərinizə yalan vəd verməməlisiniz.

**TƏRƏZİ**



Olduqca romantik bir təqvimdir. Dünənə qədər sizə şübhə ilə yanaşanların əksəriyyəti səmimiliyinizin şahidi olacaq. Sevdiyiniz adamların yanında olmağınız çox vacibdir.

**ƏQRƏB**



Göy qübbəsi daha çox ikitərəfli əlaqələrdə bəxtinizin gətirəcəyini bildirir. İstər ailə-sevgi məsələlərində, istərsə də işgüzar münasibətlərdə vəziyyətiniz qənaətbəxş olacaq.

**OXATAN**



İxtiyarınızda olan bu tarixdə təmkininizi qorumalısınız. Hər hansı çılğınlıq və ya əsəblərin qabarması bütün işləri korlaya bilər. Riskli planlarınızı mümkün qədər təxirə salın.

**OĞLAQ**



Ümumi məziyyətlərinə görə qalmaqallı günlərdir. Az qala hər addımda gərginliklə rastlaşacaqsınız. Əsas enerjinizi münasibətlərə deyil, işə həsr etməklə bu xoşagəlməzliyi dəf edə bilərsiniz.

**DOLÇA**



Mistik bir həftə yaşayacaqsınız. Daxili harmoniyanız pozulduğundan real olmayan şeylər barədə düşünə bilərsiniz. Bunun qarşısını almaq üçün yaxşı olar ki, vaxt tapıb ziyarətgahlara gedəsiniz.

**BALIQLAR**



Romantika ilə dolu olan bir tarix yaşayacaqsınız. Maddi durumunuz imkan versə, uzaq səfərə də çıxın. Qarşıdakı günlər üçün vacib olan bir neçə mühüm görüş keçirməniz məsləhətdir.

*Hazırladı: Afət Manafova*

*Təsisçi:* **“Azərenerji” ASC**
*Naşir:* **“Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu” MMC**

*Baş redaktor:* **Elşən ƏLİYEV**



*Redaksiyanın ünvanı:* AZ 1012. Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 94.
*Telefonlar:* (012) 430-01-20; *daxili:* baş redaktor - (075) 216, şöbələr - (075) 214; (075) 215. *E-mail:* **azerbaycan-ishiqlari@box.az**

“Azərbaycan işıqları” qəzetinin kompüterlərində yığılıb səhifələnir, **“CBS polygraphic production”** mətbəəsində çap olunur. Tiraj: 2000

Çapa imzalanıb: 21 oktyabr 2015-ci il, saat 18.00.
*Məsul növbətçi:* **S.QARAYEV**